AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU

ISSN 2663-4414 (Print)
ISSN 2709 – 0762 (E-Print)

# MÜQAYİSƏLİ ƏDƏBİYYATŞÜNASLIQ

BEYNƏLXALQ ELMİ JURNAL



**AZƏRBAYCAN-ÖZBƏK ƏDƏBİ ƏLAQƏLƏRİ**
XÜSUSİ BURAXILIŞ

## COMPARATIVE LITERATURE STUDIES

**INTERNATIONAL SCIENTIFIC JOURNAL**
SPECIAL ISSUE

**BAKI – 2020, № 1**

## *USTAD ƏLİŞİR NƏVAİ VƏ BABUR*

# Nəvai yurdunun şan-şöhrəti

**Mirzə İbrahimov**
Azərbaycanın Xalq yazıçısı

Ədəbiyyat və incəsənət inciləri ilə respublikamıza qonaq gələn qardaş özbək xalqı öz əməyi və işıqlı dühası ilə insanlığın azadlıq, tərəqqi və mədəniyyət tarixinə parlaq səhifələr yazmış xalqlardandır. Onun fiziki və zehni əməyi Səmərqənd və Buxara kimi şəhərlərin ölməz memarlıq abidələrində, bəşər bədii təfəkkürünün əbədi xəzinəsinə daxil olmuş şeir və sənət nümunələrində, torpağı bəzəyən, təbiətin gözəlliklərini artıran, insan həyatı üçün zəruri nemətlər yetirən meyvə bağlarında, taxıl və pambıq tarlalarında, göylərə baş çəkən əzəmətli çinarlarda maddiləşmiş, tükənməz yaradıcı qüvvəsini göstərmişdir.

Böyük Oktyabr sosialist inqilabı ölkəmizin başqa xalqları kimi, özbək xalqını da istismar dünyasının, xüsusi mülkiyyət aralığının zülmündən, əsarətindən birdəfəlik xilas etdi, onu arasıkəsilməz iqtisadi və mədəni yüksəliş yoluna çıxartdı. O gündən özbək xalqının hərtərəfli intibahı və mənəvi-mədəni yüksəlişi başladı, özbək tarixinin yeni səhifələri yazıldı.

Özbək xalqının bütün buxovlardan azad olmuş yaradıcı əməyi və fikri fəzalara qol-qanad açır, əsl möcüzələr yaradır.

Mən bir neçə dəfə Özbəkistanda olmuşam, onun Daşkənd, Səmərqənd, Buxara kimi mədəniyyət mərkəzlərini, bir sıra kəndlərini gəzmişəm, fəhlələri, kolxozçuları, ziyalıları, tələbələri ilə görüşmüşəm, həmişə də Özbəkistanda təsərrüfatın, tikintinin, abadlıq və mədəni quruculuq işlərinin vüsəti qəlbimdə işıqlı, hərarətli hisslər, sahilsiz sevinclər oyadıb. Lakin Özbəkistanda insanı daha çox sevindirən adamların inkişafıdır. Özbək xalqı bütün ittifaqımızda ad çıxarmış pambıq ustaları, qabaqcıl fəhlələr, sənaye və kənd təsərrüfatı komandirləri, dövlət və partiya işçiləri, alimlər, yazıçılar, incəsənət ustaları tərbiyə etmişdir. Sosialist inqilabının sovet həyat şəraitinin qədim tarixli özbək torpağında ucaltdığı əbədi abidə budur, kommunist əxlaqlı, azad düşüncəli yeni insan.

Özbək xalqının qədim tarixi kədərlə, qəm-qüssə və faciələrlə doludur. Lakin bu tarixi irəli aparan, ona hərəkət verən kədər və qəm-qüssə olmayıb, xalqın həyat eşqi, nikbin ruhu, haqqın, insaniyyətin xeyrinə, qələbəsinə inamı olub, bu yolda apardığı mübarizələr olub. Bu sarsılmaz ruh, bu sönməz ürək insanlığın azadlıq mübarizəsinə olmaz dühalar bəxş edib: Uluğbəy, Nəvai, Babur kimi böyük oğullarının sayəsində özbək xalqının mədəniyyəti və ümumiyyətlə iqtisadi-ictimai həyatı XV əsrdə parlaq intibah dövrü keçirmişdir. Bu, ümumbəşər intibah mədəniyyəti tarixinin əhəmiyyətli səhifələrindən birini təşkil edir.

Azərbaycan və özbək ədəbi əlaqələrinin kökü tarixin çox dərinliyindədir. Heç də təsadüfi deyil ki, Əlişir Nəvai "Heyrət ül-əbrar" ("Möminlərin heyrəti") əsərində Nizamini yüksək, ali sözlərlə tərifləyir, mənəvi sirlər xəzinəsinin açarı onun əlindədir, deyir.

Ümumiyyətlə, özbək xalqı ilə, özbək mədəniyyəti ilə Azərbaycan xalqını və Azərbaycan mədəniyyətini birləşdirən cəhətlər, bir-birinə bağlayan tellər çoxdur. Sovet dövründə, sosializm quruculuğu illərində Özbəkistanın və Azərbaycanın elm, mədəniyyət, ədəbiyyat və incəsənət adamları arasındakı dostluq, qardaşlıq əlaqələri daha da genişlənmişdir. Tez-tez birgə elmi və yaradıcılıq görüşləri, müşavirələri keçirir, yeni kəşflər, əsərlər, tədqiqatlar, yaradıcılıq axtarışları barədə fikir mübadiləsi aparırıq. Müntəzəm surətdə keçirilən elmi konfranslar, konsert və tamaşalar hər iki respublikanın zəhmətkeşləri arasında dərin maraq oyatmaqla bərabər, kommunist əxlaqı normalarının yayılmasına, estetik tərbiyənin güclənməsinə kömək edir.

Azərbaycan oxucuları qardaş özbək ədəbiyyatını həmişə maraqla izləyirlər. Özbək ədəbiyyatının həm klassikləri, həm də müasir görkəmli yazıçıları dilimizə müntəzəm tərcümə olunur. Qafur Qu-

lamın, Aybəkin, Şərəf Rəşidovun, Kamil Yaşenin, Həmid Qulamın, Rəmə Babacanın, Zülfiyyənin əsərləri Azərbaycan oxucularının dərin məhəbbətini qazanmışdır.

Mən böyük həvəslə, dərin mənəvi-estetik həzz ilə Şərəf Rəşidovun "Qaliblər" romanını dilimizə tərcümə etmişəm. Bu gözəl roman müəllifin lirik, insani duyğularının dərinliyi ilə həyata, varlığa sağlam, nikbin münasibəti ilə çox dəyərli əsərdir. Oxucuda daim işıqlı fikirlər, təmiz insani duyğular və eyni zamanda tükənməz maraq oyadır.

Mən böyük məhəbbətlə deyirəm ki, özbək yazıçıları Azərbaycan ədəbiyyatına qarşı çox həssasdırlar. Onlar ədəbiyyatımızı müntəzəm izləyir, onun yeni əsərləri barədə özbək oxucusuna məlumat verir və bu əsərlərin çoxunu tərcümə edib kifayət qədər böyük tirajla oxucuya çatdırırlar.

Özbəkistan həm də başqa xalqların, xüsusən Asiya və Afrika xalqlarının ədəbi nümunələrinin tərcüməsi və çapı cəhətdən yaxşı yerlərdən birini tutur. Bu da təbiidir ki, bu məsələdə məşhur "Daşkənd ruhu" özünü göstərir.

Partiyamızın böyük Lenin xəttini yerinə yetirərək sülh uğrunda imperializmə, müstəmləkəçiliyə qarşı mübarizədə Asiya və Afrika xalqlarının vahid cəbhəsini yaratmaqda, həmrəyliyə qüvvət və vüsət verməkdə Daşkəndin tarixi rolu vardır. Daşkənd Asiya və Afrika xalqları həmrəylik hərəkatının ilk mərkəzlərindəndir. Daşkənd Asiya və Afrika yazıçıları təşkilatının beşiyidir. Asiya və Afrika yazıçılarının həyatında, mübarizəsində böyük əhəmiyyəti olan bir sıra vacib beynəlxalq müşavirələr, görkəmli dövlət başçılarının görüşləri, simpozium və müşavirələr Özbəkistan SSRİ-nin paytaxtı Daşkənddə keçirilmişdir.

Eyni zamanda Daşkənd özbək xalqının insani duyğularını, beynəlmiləlçilik ruhunu təcəssüm etdirən bir paytaxtdır. Burada ağır zəlzələlərin nəticələrini aradan qaldırmış hər respublikanın neçə-neçə yadigar binası əzəmətlə ucalır. Bəli, Daşkənd bu gün çiçəklənən Özbəkistanın paytaxtı və xalqların qardaşlıq şəhəridir.

Azərbaycan öz əziz qonaqlarını sevinclə, qollarını açaraq qarşılayır. Artıq gözümüz önündə rəngarəng özbək ipəyi ilə parlayan səhərlər canlanır qulağımızda ahəngdar, mübariz və lirik özbək musiqisi səslənir. İxtiyarsız olaraq ürəyimizdən bir səs qalxır:

- Xoş gəlmisiniz, əziz dostlar, mehriban qardaşlar!

«Elm və təhsil» nəşriyyatının direktoru:
**Professor Nadir Məmmədli**

Nəşriyyat redaktoru: fil.ü.f.d. **Töhfə Talıbova**
Publishing editor: PhD in philology **Tohfa Talibova**
Редактор издательства: др.филос. по филологии **Тохфа Талыбова**

Texniki redaktor: **Rəşid Kərimli**
Make up editor: **Rashid Karimli**
Технический редактор: **Рашид Керимли**

www.clsjournal.literature.az
comp.lit@lit.science.az
Çapa imzalanıb: 12.05.2020. Formatı: 70x100 1/16
Approved to the print: 12.05.2020. Format: 70x100 1/16
Подписано к печати: 12.05.2020. Формат: 70x100 1/16
Tirajı 300 nüsxə. Həcmi: 22 ç.v.
Edition 300 copy. Size: 22 p.p.
Тираж 300 экземпляров. Том: 22 п.л.

====================================
Jurnal *“Elm və təhsil nəşriyyat-1” MMC-də*
hazır elektron variantdan çap olunmuşdur.

***E-mail:*** elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
***Ünvan:*** Baki, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.